# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 295**

## QƏRAR

**Bakı şəhəri, 5 avqust 2016-cı il**

# "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası" təsdiq edilsin (1 nömrəli əlavə);

2. "Lisenziya" blankının forması təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Ümumi lisenziya" blankının forması təsdiq edilsin (3 nömrəli əlavə).

4. "Xüsusi lisenziya" blankının forması təsdiq edilsin (4 nömrəli əlavə).

5. "Lisenziyanın əlavəsi"nin forması təsdiq edilsin (5 və 6 nömrəli əlavələr).

6. "Ümumi lisenziyanın əlavəsi"nin forması təsdiq edilsin (7 nömrəli əlavə).

7. "Xüsusi lisenziyanın əlavəsi"nin forması təsdiq edilsin (8 nömrəli əlavə).

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*